**Təsdiq edirəm**
**ADMİU-nun rektoru**
**________Professor Ceyran Mahmudova**
**“ 12 ” “ sentyabr ” 2025-ci il**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L P R O Q R A M I

**7004003 – Biznesin təşkili və idarə edilməsi (MBA) ixtisasının**
**Mədəniyyət sahələrinin idarə edilməsi ixtisaslaşması**

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin**
**3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının**
**12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.**

**BAKI – 2025**

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA)** ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrilə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı **ümumi səriştələrə** yiyələnməlidir:

2.1.1. peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;

2.1.2. müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;

2.1.3. fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;

2.1.4. fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;

2.1.5. fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;

2.1.6. fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;

2.1.7. müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;

2.1.8. istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;

2.1.9. davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

**2.2.Təhsil proqramının sonunda 7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA) ixtisasının ixtisaslaşmaları üzrə məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:**

**2.2.24. Mədəniyyət sahələrinin idarə edilməsi ixtisaslaşması üzrə**

- mədəniyyət və incəsənət sahələrində layihə idarəçiliyini həyata keçirmək;
- mədəniyyət və incəsənət sahəsində riskləri müəyyənləşdirərək onların idarə edilməsini təmin etmək;
- mədəniyyət sahəsində fəaliyyət göstərən komandaların idarə olunmasına dair təşkilati modelləri təhlil etməklə uyğun idarəetmə üsullarını tətbiq etmək;
- mədəniyyət və incəsənət sahəsində müxtəlif maliyyələşdirmə modellərindən istifadəni təmin etmək;
- mədəniyyət sahələrində insan resurslarının idarə olunması və işçi heyətinin fəaliyyətinə dair təşkilati qərarların planlaşdırılmasını həyata keçirmək ;
- mədəniyyət sahəsində rəqəmsallaşma və innovativ yanaşmalar vasitəsilə layihələrin effektivliyini və auditoriya əhatəsini artırmaq;
- mədəniyyət sahəsində qanunvericiliyin tələblərinin icrasını təmin etmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Mədəniyyət sahələrinin idarə edilməsi* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |

3.2. Təhsil proqramı ixtisasdan (ixtisaslaşmadan) asılı olaraq 90 (1.5 il) AKTS kreditindən ibarətdir. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1. | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2. | ***Layihələrin idarə olunması***<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələlər ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar,təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgünqiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | 54 |
| 3. | **Mədəniyyət sahəsində strateji planlama**<br>Bu fənni MBA proqramında menecerlərə və qərarverici şəxslərə mədəniyyət sektorunda uzunmüddətli inkişaf strategiyalarının hazırlanması, idarəetmə modellərinin tətbiqi və resursların səmərəli bölüşdürülməsi bacarıqlarını qazandırmaq məqsədi daşıyır. Fənn mədəniyyət müəssisələrinin (muzeylər, teatrlar, qalereyalar, mədəni irs obyektləri və s.) fəaliyyətinin iqtisadi əsaslarını, strateji idarəetmə mexanizmlərini və innovativ planlama yanaşmalarını təhlil edir.<br>Məzmun baxımından dərs mədəniyyət siyasətinin formalaşması, maraqlı tərəflərin (dövlət, özəl sektor, vətəndaş cəmiyyəti, beynəlxalq təşkilatlar) qarşılıqlı əlaqəsi, mədəni layihələrin və proqramların planlaşdırılması, maliyyələşmə mənbələrinin diversifikasiyası, risklərin qiymətləndirilməsi və monitorinq–qiymətləndirmə sistemlərinin qurulması kimi məsələləri əhatə edir.<br>Fənn həmçinin strateji planlama prosesində SWOT-analiz, Balanced Scorecard (BSC), stakeholder analizi, performans indikatorları və innovativ idarəetmə modelləri kimi müasir | 6 |

| | | |
|---|---|---|
| | idarəetmə alətlərinin tətbiqini praktik nümunələr və beynəlxalq təcrübə əsasında öyrədir. | |
| 4 | **Yaradıcı iqtisadiyyat**<br>Bu fənn MBA proqramı çərçivəsində tələbələrə müasir iqtisadi inkişafın yeni istiqaməti olan yaradıcılıq əsaslı iqtisadiyyatın nəzəri və praktiki əsaslarını öyrətməyi hədəfləyir. Fənn yaradıcılığın iqtisadi dəyərə çevrilmə mexanizmini, yaradıcı sənayelərin (mədəniyyət, media, dizayn, kino, musiqi, moda, oyun sənayesi, rəqəmsal texnologiyalar və s.) biznes modellərini və bu sektorların milli iqtisadiyyatda rolunu araşdırır<br>Dərs zamanı yaradıcı iqtisadiyyatın formalaşma mərhələləri, innovasiya və intellektual mülkiyyətin idarə olunması, kreativ sahibkarlığın dəstəklənməsi siyasətləri, mədəni və yaradıcılıq klasterlərinin inkişafı, həmçinin rəqəmsallaşmanın və texnoloji transformasiyanın bu sahəyə təsiri təhlil olunur.<br>Fənn eyni zamanda beynəlxalq yaradıcılıq iqtisadiyyatı təcrübəsini (UNESCO, UNCTAD, WIPO, OECD və s. təşkilatların tövsiyələri və hesabatları əsasında) öyrənməklə tələbələrə qlobal yanaşma qazandırır və yerli şəraitə uyğun strategiyalar formalaşdırmaq bacarığı aşılayır. | 6 |
| 5 | **Mədəniyyət müəssisələrində idarəetmə**<br>Bu fənn MBA proqramında tələbələrə mədəniyyət sektorunun idarəetmə xüsusiyyətlərini, təşkilati strukturlarını, insan və maliyyə resurslarının səmərəli istifadəsi prinsiplərini öyrətməyi hədəfləyir. Fənn mədəniyyət müəssisələrinin (muzeylər, teatrlar, kitabxanalar, konsert zalları, mədəni mərkəzlər, irs obyektləri və s.) fəaliyyətinin planlaşdırılması, təşkili, koordinasiyası və nəzarəti kimi idarəetmə funksiyalarının elmi əsaslarını əhatə edir.<br>Dərs çərçivəsində tələbələr mədəniyyət idarəçiliyinin hüquqi, iqtisadi və institusional əsaslarını, dövlət və özəl sektor modellərini, mədəniyyətin maliyyələşmə mexanizmlərini, insan resurslarının idarə olunmasını, marketinq və auditoriya inkişafı strategiyalarını, eləcə də innovasiya və rəqəmsal transformasiyanın idarəetmə prosesinə təsirini öyrənirlər.<br>Fənn həm nəzəri, həm də praktik istiqamətdə qurulur: tələbələr real mədəniyyət müəssisələrinin nümunələri üzərində təhlil aparır, idarəetmə qərarları üçün strategiyalar hazırlayır və beynəlxalq təcrübə ilə müqayisələr aparırlar. | 6 |
| 6 | **Maliyyə uçotu və vergi**<br>Bu fənn MBA proqramı çərçivəsində tələbələrə müəssisələrin maliyyə fəaliyyətinin uçotunun aparılması, maliyyə hesabatlarının hazırlanması, eləcə də vergi sisteminin iqtisadi münasibətlərdə rolu barədə kompleks biliklər qazandırmaq məqsədi daşıyır.<br>Fənn maliyyə uçotunun prinsipləri, aktivlərin, öhdəliklərin və kapitalın uçotu, gəlir və xərclərin tanınması, maliyyə nəticələrinin müəyyənləşdirilməsi və hesabatların təhlili | 6 |

| | | |
|---|---|---|
| | mövzularını əhatə edir. Bununla yanaşı, vergi sisteminin strukturu, vergi növləri, vergiqoyma mexanizmləri, müəssisələrin vergi öhdəlikləri və dövlət fiskal siyasətinin biznes mühitinə təsiri də öyrənilir.<br>Dərs həm nəzəri, həm də tətbiqi xarakter daşıyır: tələbələr real maliyyə hesabatları ilə işləyir, vergi hesablamaları aparır, uçot informasiyasının idarəetmə qərarlarında necə istifadə olunduğunu praktiki nümunələrlə öyrənirlər. | |
| 7 | **Mədəniyyət sahəsində hüquq**<br>Bu fənn tələbələrə mədəniyyət siyasətinin formalaşması və həyata keçirilməsinin hüquqi əsaslarını, mədəni irsin qorunması, yaradıcılıq fəaliyyətinin tənzimlənməsi və intellektual mülkiyyət hüquqlarının müdafiəsi mexanizmlərini öyrədir.<br>Fənn mədəniyyət sahəsində dövlət və özəl qurumların fəaliyyətini tənzimləyən qanunvericilik bazasını, beynəlxalq konvensiyaları (UNESCO, WIPO, Avropa Şurası və s.), mədəniyyət müəssisələrinin hüquqi statusunu, müqavilə münasibətlərini və mədəni layihələrdə hüquqi məsuliyyət məsələlərini əhatə edir.<br>Dərs həm nəzəri, həm də praktik istiqamətdə qurulur: tələbələr real hüquqi sənədləri, milli və beynəlxalq qanunvericilik aktlarını təhlil edir, mədəniyyət layihələrinin hüquqi təminat mexanizmlərini modelləşdirir və yaradıcılıq fəaliyyəti kontekstində hüquqi riskləri qiymətləndirməyi öyrənirlər. | 6 |
| 8 | **Mədəniyyət sahəsində marketinq və kommunikasiya**<br>Bu fənn tələbələrə mədəniyyət müəssisələrinin və yaradıcılıq sənayelərinin auditoriya ilə əlaqələrinin idarə olunması, məhsul və xidmətlərin bazarda mövqeləndirilməsi, həmçinin ictimaiyyətlə münasibətlərin strateji şəkildə qurulması prinsiplərini öyrədir.<br>Fənn mədəniyyət məhsulunun (sənət əsəri, sərgi, tamaşa, festival, irs məkanı və s.) marketinq xüsusiyyətlərini, mədəniyyət istehlakçısının davranış modellərini, bazar seqmentasiyasını, brend formalaşdırılmasını və kommunikasiya strategiyalarını (PR, reklam, sosial media, ictimai diplomatiya və s.) əhatə edir.<br>Kurs həm nəzəri, həm də praktiki istiqamətdə qurulur: tələbələr real mədəniyyət layihələri və kampaniyalar üzərində işləyir, auditoriya araşdırması aparır, kommunikasiya planları tərtib edir və mədəniyyət sahəsində marketinq qərarlarının sosial, etik və iqtisadi aspektlərini təhlil edirlər. | 6 |
| 9 | **Mədəniyyət sahəsində sahibkarlıq fəaliyyəti**<br>Bu fənn tələbələrə mədəniyyət müəssisələrinin və yaradıcılıq sənayelərinin iqtisadi fəaliyyətini təşkiletmə, biznes modelini qurma və layihələri səmərəli idarə etmə bacarıqlarını | 6 |

| | | |
|---|---|---|
| | qazandırır. Fənn mədəniyyət sahəsində biznesin planlaşdırılması, maliyyələşdirilməsi, innovativ layihələrin həyata keçirilməsi, risklərin idarə olunması və gəlir modellərinin təhlilini əhatə edir.<br>Kurs çərçivəsində tələbələr mədəni məhsul və xidmətlərin bazarda mövqeləndirilməsi, investorlarla əməkdaşlıq, sponsorluq və qrant mexanizmləri, eləcə də rəqəmsal platformalar və kreativ iqtisadiyyatın təşviqi sahəsində biliklər əldə edirlər. Fənn həm nəzəri, həm də praktik yönümlüdür: tələbələr real mədəniyyət layihələrinin biznes planlarını hazırlayır, maliyyə və marketinq strategiyalarını tətbiq edir və layihələrin dayanıqlılığını təhlil edirlər. | |
| 10 | **Mədəniyyət sahəsində tədbirlərin təşkili**<br>Bu fənn tələbələrə mədəniyyət müəssisələrində və yaradıcılıq sahələrində müxtəlif tədbirlərin (konsertlər, sərgilər, teatr tamaşaları, festivallar, seminarlar və s.) planlaşdırılması, hazırlanması və həyata keçirilməsi üzrə bilik və bacarıqlar qazandırır.<br>Fənn tədbirin məqsəd və mövzusunun seçilməsi, planlama mərhələsi, resursların təşkili, kommunikasiya strategiyaları, risklərin idarə olunması, büdcə və sponsorluq məsələləri, həmçinin tədbirin monitorinqi və qiymətləndirilməsi kimi aspektləri əhatə edir.<br>Kurs həm nəzəri, həm də praktiki yönümlüdür: tələbələr real və ya simulyasiya olunmuş mədəni tədbirlər üzərində işləyir, layihələr hazırlayır, marketinq və PR strategiyalarını tətbiq edir və iştirakçıların təcrübəsini qiymətləndirirlər. | 6 |
| 11 | **Mədəniyyət layihəsi üzərində iş**<br>Bu fənn tələbələrə real və ya simulyasiya olunmuş mədəniyyət layihələrinin hazırlanması, planlaşdırılması və idarə olunması üzrə praktik bacarıqlar qazandırır. Fənnin əsas məqsədi tələbələrin yaradıcılıq, strateji düşünmə, layihə idarəetməsi və problem həll etmə bacarıqlarını inkişaf etdirməkdir.<br>Kurs çərçivəsində tələbələr layihənin ideya konsepsiyasının formalaşdırılması, məqsəd və hədəflərin müəyyənləşdirilməsi, resursların planlaşdırılması, maliyyə və büdcə tərtibatı, marketinq və kommunikasiya strategiyalarının hazırlanması, risklərin idarə olunması və layihənin icrası və monitorinqi kimi mərhələləri öyrənirlər.<br>Fənn həm nəzəri bilikləri, həm də praktiki təcrübəni birləşdirir; tələbələr öz layihələrini təqdim edir, mentor və qrup müzakirələri vasitəsilə təkmilləşdirir və nəticələri qiymətləndirirlər. | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | 18 |
| 12 | **a) Sivilizasiyalar tarixi**<br>Bu fənn müxtəlif sivilizasiyaların yaranması, inkişafı və dünya | 6 |

| | | |
|---|---|---|
| | tarixinə təsirini öyrənən interdisiplinar bir dərsdir. Fənn qədim mədəniyyətlər, cəmiyyətlər, siyasi sistemlər, incəsənət, elm, din və digər insan fəaliyyət sahələrinin tədqiqini əhatə edir. Kurs boyunca tələbələr müxtəlif sivilizasiyalar, onların qarşılıqlı əlaqələri, eləcə də qədim dövrləri formalaşdıran əsas tarixi hadisələr və proseslər haqqında bilik əldə edirlər. Bu fənnin öyrənilməsi tələbələrdə mədəniyyətə dair məlumatlılıq, tənqidi düşüncə və fərqli mədəniyyətlər və tarixi dövrlər arasında əlaqələri anlama bacarığını inkişaf etdirir.<br>**b) Mədəniyyət və incəsənətdə yeni trendlər**<br>Bu fənn müasir dövrdə mədəniyyət və incəsənət sahəsində formalaşan yeni istiqamətləri, yaradıcılıq meyllərini və texnoloji yeniliklərin təsirini öyrənən interdisiplinar kursdur. Fənnin əsas məqsədi tələbələrə qlobal mədəni proseslərin, rəqəmsal transformasiyanın, postmodern və posthumanist ideyaların, həmçinin yaradıcılıq sənayelərində baş verən dəyişikliklərin mahiyyətini anlama bacarığı qazandırmaqdır.<br>Kurs çərçivəsində müasir incəsənət formaları (performans, rəqəmsal və konseptual sənət, NFT, metaverse sənəti və s.), mədəniyyətin istehlak və istehsal modelləri, sosial media və kreativ iqtisadiyyatın təsiri, həmçinin yeni estetik və etik tendensiyalar təhlil olunur.<br>Fənn həm nəzəri, həm də praktiki istiqamətdə qurulur: tələbələr müasir mədəniyyət hadisələrini analiz edir, innovativ mədəni layihələr üçün ideyalar formalaşdırır və qlobal tendensiyaları yerli kontekstdə dəyərləndirməyi öyrənirlər. | |
| 13 | **a) Mədəniyyətin sosiologiyası**<br>Bu fənn mədəniyyətin sosial sistemlər, sosial davranış və ictimai münasibətlər kontekstində formalaşması və inkişafını araşdıran elmi istiqamətdir. Fənn mədəniyyətin cəmiyyətin quruluşuna, dəyərlər sisteminə, sosial institutlara və fərdi kimliyə təsir mexanizmlərini təhlil etməyi hədəfləyir.<br>Dərs çərçivəsində tələbələr klassik və müasir sosioloji nəzəriyyələr (E. Dürkheim, M. Veber, P. Burdye, A. Qramşi və s.), mədəni dəyərlər, simvollar, ideologiya və sosial norma anlayışlarını, həmçinin kütləvi mədəniyyət, qloballaşma, mədəni müxtəliflik və mədəni istehlak kimi mövzuları öyrənirlər. Fənn mədəniyyətin sosial dəyişmələrin həm səbəbi, həm də nəticəsi kimi rolunu göstərir və tələbələrə müxtəlif mədəniyyət modellərini müqayisəli şəkildə təhlil etmək bacarığı qazandırır. Dərs həm nəzəri təhlil, həm də empirik müşahidə və sosial tədqiqat üsullarının tətbiqi ilə aparılır.<br>**b) Liderlik və təşkilatçılıq davranışı**<br>Bu fənn təşkilat daxilində insan davranışının və liderliyin psixoloji, sosioloji və idarəetmə aspektlərini öyrənən elmi istiqamətdir. Fənn təşkilatlarda fərdlərin və qrupların motivasiyası, qərar qəbuletmə prosesi, ünsiyyət, konfliktlərin idarə olunması, komanda işi və liderlik üslublarını analiz edir. Kursun məqsədi tələbələrdə təşkilati mədəniyyətin | 6 |

| | | |
|---|---|---|
| | formalaşması, dəyişikliklərin idarə olunması və effektiv liderlik bacarıqlarının inkişafına nail olmaqdır. Dərs çərçivəsində tələbələr müxtəlif liderlik nəzəriyyələri (transformasional, situativ, xidmət yönümlü və s.), təşkilati davranış modelləri, emosional intellekt və motivasiya sistemləri ilə tanış olurlar. Fənn həm nəzəri bilikləri, həm də praktiki tapşırıqları, situasiya təhlillərini və real təşkilat nümunələrini əhatə edir. | |
| 14 | **a) Mədəniyyət sahəsində insan resurslarının idarə edilməsi**<br>Bu fənn tələbələrə mədəniyyət müəssisələrində və yaradıcılıq sənayelərində insan resurslarının planlaşdırılması, təşkili, inkişafı və motivasiyasını öyrətməyi hədəfləyir. Fənn insan resursları strategiyası, kadr seçimi, işçilərin təlimi və inkişafı, performansın qiymətləndirilməsi, motivasiya sistemləri və işçi hüquqları kimi sahələri əhatə edir.<br>Kurs çərçivəsində tələbələr həm nəzəri biliklər, həm də praktiki bacarıqlar qazanırlar: HR strategiyalarının mədəniyyət kontekstində tətbiqi, komanda idarəçiliyi, liderlik bacarıqları, əmək münasibətlərinin hüquqi tənzimlənməsi və kreativ işçi mühitinin formalaşdırılması öyrənilir.<br>Fənn praktiki tapşırıqlar, qrup müzakirələri və real mədəniyyət müəssisələrinin nümunələri üzərində təhlillərlə dəstəklənir.<br>**b) Biznes və idarəetmədə süni intellekt**<br>Bu fənn tələbələrə AI texnologiyalarının biznes və idarəetmə sahəsində tətbiqini, analitik alətlər və avtomatlaşdırma sistemlərini öyrətməyi hədəfləyir. Fənn süni intellektin biznes proseslərinin optimallaşdırılması, məlumatların təhlili, qərar qəbuletmə, strategiya formalaşdırma və innovativ məhsul və xidmətlərin inkişafına təsirini əhatə edir.<br>Kurs çərçivəsində tələbələr AI əsasları, maşın öyrənməsi, data analitikası, robotlaşdırma, chatbot və CRM sistemlərində AI tətbiqləri, həmçinin etik və hüquqi aspektləri öyrənirlər. Fənn həm nəzəri, həm də praktiki yönümlüdür: tələbələr real biznes problemləri üzərində AI tətbiqlərini modelləşdirir, qərar qəbuletmə proseslərini optimallaşdırır və strategiyalar hazırlayırlar. | 6 |
| | **Təcrübə** | |
| 15 | Elmi-pedaqoji təcrübə | 6 |
| | **CƏMİ** | 90 |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1 . Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2 İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3 İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4 Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- professor-müəllim və tədris köməkçi heyəti;
- zəruri avadanlıqla təchiz olunmuş auditoriya;
- kompüter otağı və internetdən istifadə imkanları;
- elmi-tədris laboratoriyası;
- təcrübələrin keçirilməsi üçün baza müəssisələri;
- elmi kitabxana;
- akademik və peşəkar elektron məlumat bazalarına çıxış imkanı.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur, elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər;

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

**6.1. 7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA) proqramı üzrə məzunlar** aşağıdakı sahələrdə və peşələrdə işləyə biləcəklər:

**Mədəniyyət sahələrinin idarə edilməsi ixtisaslaşması üzrə**

- Mədəniyyət üzrə layihə rəhbəri;
- Mədəniyyət proqramları koordinatoru;
- Yaradıcı sənaye şirkətlərində direktor;
- Kreativ layihə rəhbəri;
- Biznes inkişafı üzrə məsləhətçi;

- Sosial mədəni layihə koordinatoru;
- Beynəlxalq layihə əlaqələndiricisi;
- Mədəniyyət proqramları üzrə təhlilçi;
- Təşkilati inkişaf üzrə ekspert və s.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

### Mədəniyyət sahələrinin idarə edilməsi ixtisaslaşması üzrə:

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| 1. Mədəniyyət sahəsində layihə idarə edəcək. |
| 2. Mədəniyyət sahəsində riskləri idarə edə biləcək. |
| 3. Mədəniyyət sahəsində uyğun idarəetmə üsullarını tətbiq edəcək. |
| 4. Mədəniyyət sahəsində müxtəlif maliyyələşdirmə modellərindən istifadə edəcək. |
| 5. Mədəniyyət işçilərinin fəaliyyətinə dair təşkilati qərar qəbul edəcək. |
| 6. İnnovativ yanaşmalar vasitəsilə auditoriya əhatəsini artıra biləcək. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Layihələrin idarə edilməsi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| Mədəniyyət sahəsində strateji planlama fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Mədəniyyət siyasətinin və idarəetmə sistemlərinin strateji əsaslarını anlayacaq və bu bilikləri müxtəlif mədəniyyət qurumlarının planlaşdırma fəaliyyətində tətbiq edə biləcək. |
| FTN 2. Mədəniyyət sektorunda strateji planlama mərhələlərini (analiz, məqsədlərin müəyyənləşdirilməsi, strategiyanın formalaşdırılması, icra, monitorinq və qiymətləndirmə) peşəkar səviyyədə tətbiq etməyi bacaracaq. |
| FTN 3. SWOT, PESTEL və BSC kimi analitik alətlərdən istifadə edərək mədəniyyət müəssisələrinin daxili və xarici mühitini təhlil edə biləcək. |
| FTN 4. Mədəniyyət iqtisadiyyatı və idarəetməsi sahəsində qərarların sosial, iqtisadi və etik nəticələrini qiymətləndirmə bacarığı qazanacaq. |
| FTN 5. Davamlı inkişaf, innovasiya və yaradıcılıq prinsiplərini strateji planlama prosesinə inteqrasiya edə biləcək. |
| FTN 6. Komanda işi, liderlik və strateji düşünmə bacarıqlarını mədəniyyət layihələrinin idarə olunmasında tətbiq etməyi öyrənəcək. |
| FTN 7. Milli və beynəlxalq mədəniyyət siyasətləri arasında əlaqəni analiz edəcək və qlobal trendləri nəzərə alaraq yeni strateji təşəbbüslər formalaşdıra biləcək. |
| FTN 8. Mədəniyyət müəssisələrinin performans göstəricilərini ölçmək və nəticə əsaslı idarəetmə mexanizmlərini qurmaq üçün müasir metodlardan istifadə etməyi bacaracaq. |

| Yaradıcı iqtisadiyyat fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Yaradıcı iqtisadiyyatın konseptual əsaslarını və inkişaf mərhələlərini anlayıb, onun iqtisadi və sosial dəyər yaratma mexanizmini izah edə biləcək. |
| FTN 2. Yaradıcı sənayelərin strukturunu, əsas aktorlarını və iqtisadi potensialını müəyyənləşdirə biləcək. |
| FTN 3. İntellektual mülkiyyət, innovasiya və brendin idarə olunması anlayışlarını yaradıcı sektor kontekstində tətbiq edə biləcək. |
| FTN 4. Yaradıcı biznes modelləri və startap ekosistemləri haqqında biliklərə yiyələnəcək və onların iqtisadi dayanıqlılığını qiymətləndirməyi bacaracaq. |
| FTN 5. Mədəni və yaradıcılıq klasterləri, inkubatorlar və yaradıcı məkanların idarəedilməsi üzrə strateji yanaşmaları tətbiq edə biləcək. |
| FTN 6. Rəqəmsal transformasiya və yeni texnologiyaların (AI, blockchain, NFT, metaverse və s.) yaradıcılıq iqtisadiyyatına təsirini təhlil edəcək. |
| FTN 7. Milli və beynəlxalq yaradıcı iqtisadiyyat siyasətlərini müqayisə edib, təhlil nəticələrinə əsasən yerli səviyyədə strategiyalar təklif edə biləcək. |
| FTN 8. Yaradıcı iqtisadiyyatın dayanıqlı inkişafla əlaqəsini anlayacaq və sosial innovasiyaların iqtisadi effektivliyini qiymətləndirəcək. |
| FTN 9. Komanda işi, strateji düşünmə və layihə planlama bacarıqlarını yaradıcı iqtisadiyyat layihələrinin hazırlanmasında tətbiq edəcək. |

| Mədəniyyət müəssisələrində idarəetmə fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Mədəniyyət müəssisələrinin idarəetmə sisteminin mahiyyətini və strukturunu anlayıb, onların fəaliyyətində idarəetmənin rolunu izah edə biləcək. |
| FTN 2. Mədəniyyət siyasətinin və strateji planlamanın prinsiplərini müəssisə səviyyəsində tətbiq etməyi bacaracaq. |
| FTN 3. Mədəniyyət müəssisələrinin təşkilati formalarını və idarəetmə modellərini (dövlət, bələdiyyə, özəl, qarışıq və s.) fərqləndirə və təhlil edə biləcək. |

| |
|---|
| FTN 4. İnsan resurslarının idarə edilməsi, liderlik və komanda quruculuğu bacarıqlarını mədəniyyət kontekstində tətbiq edəcək. |
| FTN 5. Maliyyə idarəetməsi, büdcə planlaşdırması və sponsorluq mexanizmlərini mədəniyyət müəssisələrinin fəaliyyətinə uyğunlaşdırmağı bacaracaq. |
| FTN 6. Mədəniyyət müəssisələrində marketinq, PR və auditoriya inkişafı strategiyalarını hazırlayır və tətbiq edə biləcək. |
| FTN 7. Rəqəmsal idarəetmə, innovasiya və texnoloji yeniliklərin (CRM, onlayn platformalar, rəqəmsal muzeylər və s.) mədəniyyət sahəsinə təsirini təhlil edəcək. |
| FTN 8. Performans göstəriciləri və effektivlik meyarları əsasında müəssisənin fəaliyyətini qiymətləndirəcək. |
| FTN 9. Milli və beynəlxalq səviyyədə mədəniyyət idarəetməsi modellərini müqayisə edəcək və yerli şəraitə uyğunlaşdırılmış idarəetmə təklifləri irəli sürəcək. |

| **Maliyyə uçotu və vergi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Maliyyə uçotunun prinsiplərini, məqsədini və funksiyalarını anlayacaq və onları müəssisə fəaliyyətinə tətbiq edə biləcək. |
| FTN 2. Mühasibat uçotu sənədlərini və maliyyə hesabatlarını (balans, mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti) tərtib və təhlil etməyi bacaracaq. |
| FTN 3. Vergi sisteminin strukturunu və əsas vergi növlərini izah edib, müəssisələrin vergi öhdəliklərini hesablamaq bacarığına yiyələnəcək. |
| FTN 4. Vergi və uçot siyasətlərinin biznesin maliyyə dayanıqlılığına və idarəetmə qərarlarına təsirini qiymətləndirə biləcək. |
| FTN 5. Mühasibat uçotu məlumatlarını strateji və operativ idarəetmə qərarlarında səmərəli istifadə etməyi bacaracaq. |
| FTN 6. Milli və beynəlxalq maliyyə hesabat standartları (IFRS və s.) üzrə əsas anlayışları mənimsəyəcək və onların tətbiqi fərqlərini müqayisə edə biləcək. |

| **Mədəniyyət sahəsində hüquq fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Mədəniyyət sahəsində hüquqi tənzimləmənin məqsəd və prinsiplərini anlayacaq və bu çərçivədə mədəni siyasətin hüquqi əsaslarını izah edə biləcək |
| FTN 2. Milli və beynəlxalq mədəniyyət qanunvericiliyinin strukturunu və əsas normativ aktlarını (qanunlar, konvensiyalar, nizamnamələr və s.) təhlil etməyi bacaracaq. |
| FTN 3. Mədəni irsin qorunması, muzey, kitabxana, teatr və digər mədəniyyət müəssisələrinin hüquqi statusunu müəyyənləşdirməyi bacaracaq. |
| FTN 4. İntellektual mülkiyyət, müəlliflik hüquqları və əlaqəli hüquqların qorunması mexanizmlərini anlayacaq və onları praktik situasiyalarda tətbiq edə biləcək. |
| FTN 5. Mədəni layihələrdə və beynəlxalq əməkdaşlıq proseslərində yaranan hüquqi münasibətləri və məsuliyyət formalarını təhlil edə biləcək. |
| FTN 6. Hüquqi bilikləri idarəetmə qərarlarında və mədəniyyət siyasətinin formalaşdırılmasında tətbiq edib, hüquqi riskləri qiymətləndirmə və qabaqlayıcı tədbirlər görmə bacarığı qazanacaq. |

| **Mədəniyyət sahəsində marketinq və kommunikasiya fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Mədəniyyət və incəsənət sahəsində marketinqin nəzəri əsaslarını və xüsusiyyətlərini anlayıb, bu bilikləri müxtəlif mədəniyyət müəssisələrinə tətbiq edə biləcək. |
| FTN 2. Mədəniyyət bazarını, auditoriya davranışlarını və istehlak tendensiyalarını təhlil |

| |
|---|
| etməyi bacaracaq. |
| FTN 3. Mədəni məhsul və xidmətlər üçün brendinq, mövqeləndirmə və reklam strategiyaları hazırlayacaq və tətbiq edə biləcək. |
| FTN 4. Kommunikasiya və PR strategiyalarının mədəniyyət müəssisələrinin reputasiyasının formalaşmasında və auditoriya ilə əlaqələrin qurulmasında rolunu izah edə biləcək. |
| FTN 5. Rəqəmsal marketinq, sosial media və yeni kommunikasiya texnologiyalarının mədəniyyət sektorunda tətbiq imkanlarını analiz edəcək. |
| FTN 6. Mədəniyyət müəssisələrinin marketinq və kommunikasiya fəaliyyətini planlaşdırmaq, idarə etmək və qiymətləndirmək bacarığı qazanacaq. |

| **Mədəniyyət sahəsində sahibkarlıq fəaliyyəti fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Mədəniyyət sahəsində sahibkarlıq fəaliyyətinin konseptual və hüquqi əsaslarını anlayır və izah edə biləcək. |
| FTN 2. Mədəni məhsul və xidmətlərin bazar təhlili və mövqeləndirilməsini həyata keçirə biləcək. |
| FTN 3. Mədəni layihələrin biznes-planlarını və maliyyə modellərini hazırlayır və qiymətləndirəcək. |
| FTN 4. Sponsorluq, qrant və investor əlaqələrini idarə etmək bacarığı qazanacaq. |
| FTN 5. Risklərin idarə olunması, dayanıqlı inkişaf prinsipləri və innovativ yanaşmaları mədəniyyət sahəsində tətbiq edəcək. |
| FTN 6. Yaradıcı iqtisadiyyat prinsiplərini və rəqəmsal texnologiyaları mədəniyyət sahəsində biznes fəaliyyətinə inteqrasiya edə biləcək. |

| **Mədəniyyət sahəsində tədbirlərin təşkili fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Mədəniyyət sahəsində tədbirlərin təşkili prinsiplərini və mərhələlərini anlayacaq və izah edə biləcək. |
| FTN 2. Tədbirin məqsəd və mövzusunu müəyyənləşdirmək, planlama və təşkilat strukturunu qurmaq bacarığı qazanacaq. |
| FTN 3. Maliyyə planlaması, büdcə tərtibatı və sponsorluq mexanizmlərini tədbir kontekstində tətbiq edəcək. |
| FTN 4. Tədbirin marketinqi, PR və kommunikasiya strategiyalarını hazırlayacaq və həyata keçirəcək. |
| FTN 5. Risklərin idarə olunması və təhlükəsizlik tədbirlərini nəzərə alaraq tədbiri təşkil edə biləcək. |
| FTN 6. Tədbirin icrasını monitorinq etmək, qiymətləndirmək və gələcək inkişaf üçün tövsiyələr hazırlamaq bacarığı qazanacaq. |

| **Mədəniyyət layihəsi üzərində iş fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Mədəniyyət layihəsinin planlanması, hazırlanması və icra mərhələlərini izah edəcək və tətbiq edə biləcək. |
| FTN 2. Layihənin məqsəd və hədəflərini müəyyənləşdirmək və uyğun strategiyalar hazırlamaq bacarığı qazanacaq. |
| FTN 3. Maliyyə planlaması, büdcə tərtibatı və resursların idarə olunması sahəsində praktik bacarıqlar əldə edəcək. |
| FTN 4. Tədbir, sərgi və ya mədəni layihələrin marketinq və kommunikasiya strategiyalarını planlaşdırır və həyata keçirəcək. |

| |
|---|
| FTN 5. Layihə risklərini müəyyənləşdirmək, idarə etmək və qiymətləndirmək bacarığına yiyələnəcək. |
| FTN 6. Layihə nəticələrini monitorinq etmək, təhlil etmək və gələcək inkişaf üçün tövsiyələr hazırlamaq bacarığını nümayiş etdirəcək. |

| **Sivilizasiyalar tarixi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Qədim və orta dövr sivilizasiyalarının yaranma və inkişaf mərhələlərini anlayacaq, onların dünya tarixində oynadığı rolu elmi əsaslarla izah edə biləcək. |
| FTN 2. Siyasi sistemlər, din, elm, incəsənət və mədəni dəyərlər arasında qarşılıqlı əlaqələri təhlil edəcək və bu münasibətlərin cəmiyyətlərin inkişafına təsirini müəyyənləşdirə biləcək. |
| FTN 3. Fərqli sivilizasiyaların bir-birinə təsirini və mədəni mübadilə proseslərini (ticarət, müharibə, diplomatiya, ideya axını və s.) qiymətləndirə biləcək. |
| FTN 4. Tarixi hadisə və prosesləri interdisiplinar yanaşma ilə (tarix, mədəniyyətşünaslıq, sosiologiya, antropologiya və s.) araşdırmaq bacarığı qazanacaq. |
| FTN 5. Mədəni irsin və tarixi təcrübənin müasir dövr üçün əhəmiyyətini dərk edəcək və müxtəlif sivilizasiyaların dəyərlərinə hörmətlə yanaşma mədəniyyəti formalaşdıracaq. |
| FTN 6. Tənqidi düşünmə, analitik təhlil və müqayisəli yanaşma bacarıqlarını tətbiq edərək mədəniyyətlər və tarixi dövrlər arasında əlaqələri sistemli şəkildə izah edə biləcək. |

| **Mədəniyyət və incəsənətdə yeni trendlər fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Müasir mədəniyyət və incəsənətin əsas trendlərini və inkişaf istiqamətlərini müəyyənləşdirəcək və onların ictimai, texnoloji və iqtisadi amillərlə əlaqəsini təhlil edə biləcək. |
| FTN 2. Rəqəmsallaşma, qloballaşma və kreativ iqtisadiyyatın mədəni və bədii istehsala təsirini elmi əsaslarla izah edə biləcək. |
| FTN 3. Yeni media, metaverse, süni intellekt və NFT kimi texnologiyaların incəsənət formalarını və yaradıcılıq proseslərini necə dəyişdirdiyini analiz edəcək. |
| FTN 4. Mədəniyyət və incəsənətdə postmodern, gender, ekoloji və sosial ədalət yönümlü tendensiyaları təhlil edəcək və onların müasir diskurslarda yerini müəyyənləşdirə biləcək. |
| FTN 5. Yaradıcı layihələrin idarə olunması və innovativ yanaşmaların tətbiqi sahəsində nəzəri bilik və praktiki bacarıqlar əldə edəcək. |
| FTN 6. Qlobal mədəni prosesləri lokal kontekstdə qiymətləndirmə və yeni mədəni strategiyalar təklif etmə bacarığı qazanacaq. |

| **Mədəniyyətin sosiologiyası fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Mədəniyyətin sosioloji anlayışını və onun cəmiyyətin strukturunda oynadığı rolu izah edə biləcək. |
| FTN 2. Klassik və müasir sosioloji nəzəriyyələrə əsaslanaraq mədəniyyətin sosial həyatdakı funksiyalarını təhlil edəcək. |
| FTN 3. Mədəniyyət və sosial institutlar (ailə, din, təhsil, media, siyasət) arasındakı qarşılıqlı əlaqələri müəyyənləşdirəcək. |
| FTN 4. Kütləvi mədəniyyət, qloballaşma və mədəni müxtəliflik proseslərini sosioloji baxımdan təhlil edəcək. |
| FTN 5. Mədəni davranış, sosial identiklik və dəyərlər sisteminin formalaşma mexanizmlərini anlamaq və qiymətləndirmək bacarığı qazanacaq. |
| FTN 6. Empirik tədqiqat metodlarından (sorğu, müşahidə, kontent-analiz və s.) istifadə |

| |
|---|
| edərək mədəni-sosioloji hadisələri araşdırmaq bacarığı əldə edəcək. |

| Liderlik və təşkilatçılıq davranışı fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Liderlik və təşkilati davranışın əsas anlayışlarını və onların idarəetmədəki rolunu izah edə biləcək. |
| FTN 2. Müxtəlif liderlik nəzəriyyələrini və üslublarını (avtoritar, demokratik, transformasional, situativ və s.) müqayisə edəcək və praktik vəziyyətlərdə tətbiq edə biləcək. |
| FTN 3. Təşkilati davranışın fərdi və qrup səviyyəsində formalaşmasına təsir edən amilləri təhlil edəcək. |
| FTN 4. Motivasiya, qərar qəbuletmə və konflikt idarəçiliyi proseslərini liderlik kontekstində izah edir və uyğun yanaşmalar təklif edəcək. |
| FTN 5. Təşkilati mədəniyyət, dəyişikliklərin idarə olunması və komanda işinin effektiv təşkili bacarıqlarını nümayiş etdirəcək. |
| FTN 6. Emosional intellekt və etik liderlik prinsiplərini real idarəetmə və kommunikasiya situasiyalarında tətbiq edə biləcək. |

| Mədəniyyət sahəsində insan resurslarının idarə edilməsi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Mədəniyyət sahəsində insan resurslarının idarəetmə prinsiplərini və funksiyalarını izah edəcək. |
| FTN 2. Kadr seçimi, işə qəbul və işçi performansının qiymətləndirilməsi proseslərini tətbiq edə biləcək. |
| FTN 3. Motivasiya, təlim və inkişaf proqramlarının hazırlanması və tətbiqi bacarığına yiyələnəcək. |
| FTN 4. Komanda idarəçiliyi, liderlik və əmək münasibətlərinin hüquqi tənzimlənməsi sahəsində biliklər qazanacaq. |
| FTN 5. İnsan resursları strategiyasını mədəniyyət müəssisələrinin məqsəd və fəaliyyətlərinə uyğun formalaşdırır və tətbiq edəcək. |
| FTN 6. Kreativ və inklüziv işçi mühitinin formalaşdırılması və idarə olunması üzrə praktiki bacarıqlar əldə edəcək. |

| Biznes və idarəetmədə süni intellekt fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Süni intellektin əsas anlayışlarını və biznesdə tətbiq sahələrini izah edə biləcək. |
| FTN 2. AI texnologiyalarının qərar qəbuletmə və idarəetmə proseslərinə təsirini qiymətləndirəcək. |
| FTN 3. Məlumatların təhlili və maşın öyrənməsi metodlarını biznes problemlərinin həllində tətbiq edə biləcək. |
| FTN 4. AI alətləri vasitəsilə əməliyyatların optimallaşdırılması və resursların idarə olunması bacarığı qazanacaq. |
| FTN 5. AI tətbiqlərinin etik, hüquqi və strateji aspektlərini nəzərə alaraq qərarlar qəbul edəcək. |
| FTN 6. Rəqəmsal transformasiya və innovasiya strategiyalarını süni intellekt vasitəsilə inkişaf etdirəcək və müəssisəyə inteqrasiya edəcək. |

| Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 - İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2 - Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3 - Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4 - Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5 - Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6 - Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

Əlavə 2

**Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi**

| | Proqramın təlim nəticələri | | | | | |
|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 |
| Akademik yazı və etika | | | | | | |
| Layihələrin idarə olunması | X | | | | | |
| Mədəniyyət sahəsində strateji planlama | | | | | X | |
| Yaradıcı iqtisadiyyat | | | | X | | |
| Mədəniyyət müəssisələrində idarəetmə | | | X | | | |
| Maliyyə uçotu və vergi | | | | X | | |
| Mədəniyyət sahəsində hüquq | | | | | | X |
| Mədəniyyət sahəsində marketinq və kommunikasiya | | X | | | X | |
| Mədəniyyət sahəsində sahibkarlıq fəaliyyəti | | X | | | | |
| Mədəniyyət sahəsində tədbirlərin təşkili | X | | | | | X |
| Mədəniyyət layihəsi üzərində iş | X | | | | | |
| Sivilizasiyalar tarixi | | | X | | | |
| Mədəniyyət və incəsənətdə yeni trendlər | | | | | | X |
| Mədəniyyətin sosiologiyası | | | | | | |
| Liderlik və təşkilatçılıq davranışı | | | | | X | |
| Mədəniyyət sahəsində insan resurslarının idarə edilməsi | | | | | X | |
| Biznes və idarəetmədə süni intellekt | | | | | | X |
| Elmi-pedaqoji təcrübə | | X | | | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ________________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ________________ **Namiq Qafarov**

**ADMİU-nun Muzeyşünaslıq və turizm kafedrasının müdiri:** ________________ **Yeganə Eyvazova**

**ADMİU-nun Kulturologiya fakültəsinin dekanı:** ________________ **Səyavuş Məhişov**